

*COP - İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası insanın iqlim mühitinə təhlükəli müdaxiləsinin qarşısını almaq məqsədilə 1992-ci ilin iyununda Rio-de-Janeyro şəhərində keçirilmiş Yer Sammitində imzalanmış sazişdir. COP (Conference of Parties) abreviaturunun ingilis dilindən tərcüməsi Tərəflər Konfransı deməkdir. Tərəflərin Konfransı İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının icrasına nəzarət edən ali qərarverici orqandır. Bu Konvensiyaya üzv olan 190-dan çox ölkə var.*

*Ötən il dekabrın 11-də Dubayda COP28-in plenar iclasında COP29-un bu il Azərbaycanda keçirilməsi haqqında qərar qəbul olunub.*




**Azərbaycan həm regionda, həm də beynəlxalq arenada etibarlı tərəfdaş kimi tanınır. Ölkəmizin inkişafı və artan nüfuzu onu Cənubi Qafqazın iqtisadi, siyasi və humanitar mərkəzlərindən birinə çevirib. Eyni zamanda müxtəlif beynəlxalq tədbirlərə ev sahibliyi etməsi Azərbaycana olan etimadın yüksəlməsinə səbəb olub. Bu il dövlətimiz daha bir mötəbər tədbirə - BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibliyi edəcək. Azərbaycanın COP29-a ev sahibliyi bu ilin ən mühüm hadisəsi olmaqla yanaşı, "yaşıl iqtisadiyyata" keçid strategiyasının məntiqi davamıdır.**

# İqlim dəyişmələri ilə mübarizədə yeni hədəflər



*Dövlət başçısının müvafiq Sərəncamı ilə 2024-cü il ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan olunub. Bu, Azərbaycanın bərpaolunan enerji sahəsinə diqqətin göstəricisi, daha sağlam gələcəyin qurulması istiqamətində dəyərli addımlar atdığının təzahürüdür. Hələ ötən əsrin sonlarından etibarən dünyanın müxtəlif ölkələrinin nüfuzlu alimləri Yer kürəsində müşahidə olunan qlobal istiləşmə və iqlim dəyişməsi problemi ilə bağlı tədqiqatlar aparırlar. İnkişaf etmiş dövlətlərin liderləri də vaxtaşırı bu mövzuda müzakirələr təşkil etməklə problemin həlli istiqamətində bir sıra siyasi və iqtisadi səciyyəli qərarların qəbuluna çalışırlar.*

*İqlim dəyişmələri özü ilə bir sıra fəlakətlər gətirir. İnsan fəaliyyətindən qaynaqlanan emissiyanın səbəb olduğu qlobal istiləşmə də bu qəbildəndir. Bu problem tarixən aktuallığını qorusa da zaman keçdikcə daha mənfi tendensiyaları özündə ehtiva etməyə başladı. Məhz bu səbəbdən, qlobal iqlim dəyişmələrinə qarşı effektiv mübarizənin təşkili 100 ildən artıqdır ki, ən vacib çağırışlardan biridir. Son dövrlər qlobal iqlim dəyişmələri özünü daha qabarıq şəkildə büruzə verir. Şimal Buzlu okeanında buzlaqların sürətlə əriməsi, Yer kürəsinin müxtəlif ərazilərində təbii şəraitin kəskin şəkildə dəyişməsi atmosferin zəhərli qazlarla çirklənməsinə səbəb olur. Bu gün qabaqcıl və elmi cəhətdən inkişaf etmiş ölkələrin rəhbərləri, alimlər, siyasətçilər və digər sənət sahibləri qlobal istiləşməyə qarşı mübarizə yollarını müəyyənləşdirmək üçün birgə səy göstərirlər. Azərbaycan da iqlim dəyişmələri ilə mübarizə aparan və problemin həllinə töhfə verən ölkələr arasındadır. Bu baxımdan, ev sahibliyi edəcəyimiz BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) dünyanın müxtəlif ölkələrinin diqqət mərkəzindədir. Bu tədbir əhəmiyyəti, miqyası və missiyasına görə ölkəmizdə keçirilən digər tədbirlərdən xeyli fərqlənəcək. COP29 müddətində dünyanın nəbzi Bakıda döyünəcək, təxminən 70-80 min xarici qonağa qucaq açacaq. Tədbir iqlim dəyişmələri ilə mübarizədə yeni mərhələnin başlanğıcı hesab olunur, eyni zamanda enerji sektoru, miqrasiya sahələrinin inkişafı nöqteyi-nəzərindən müsbət əhəmiyyətə malikdir.*

*Məlum olduğu kimi, iqlim dəyişmələri ilə bağlı konfransların, sessiyaların keçirildiyi dövlətlərdə sonrakı mərhələlərdə məhz həmin sahələrdə çox ciddi irəliləyişlər müşahidə olunur. "Yaşıl enerji", ətraf mühitin mühafizəsi, ekologiya kimi sahələrdə ixtisaslaşan qurumların təmsilçilərinin qatıldığı mötəbər tədbirdə hər bir dövlətin özünəməxsus iştirak pavilyonu olur. Beynəlxalq əhəmiyyətə malik olan COP29-da dünyanın aparıcı dövlətlərinin rəhbərlərinin, alimlərinin, müxtəlif sənət sahiblərinin, bütövlükdə çoxsaylı insanların iştirakı gözlənilir. Azərbaycanın bütün beynəlxalq tədbirlərə yüksək səviyyədə ev sahibliyi etdiyini nəzərə alsaq, COP29-un uzun müddət yaddaşlardan silinməyəcəyi və mühüm nəticələr əldə olunacağı şübhə doğurmur.*

*İqlim dəyişmələrinin qarşısının alınmasında "yaşıl enerji"yə keçid mühüm istiqamətlərdən biridir. Rəsmi Bakı bu sahədə bir sıra uğurlara imza atıb. Belə ki, 44 günlük Vətən müharibəsində əldə etdiyimiz qələbə nəticəsində işğaldan azad olunmuş ərazilər "yaşıl enerji" zonası elan edilib. Bununla yanaşı, həmin yerlərin 2050-ci ilədək "netto sıfır emissiya" zonasına çevrilməsi nəzərdə tutulub. Baxmayaraq ki, Azərbaycan dünyada neft hasilatında nüfuz qazanmış ölkədir ki, "yaşıl enerji" ilə bağlı kifayət qədər layihələr həyata keçirib. Respublikamız 1990-cı illə müqayisədə 2030-cu ilə qədər istixana qazlarının miqdarının 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaldılmasını qarşıya məqsəd qoyub. Azərbaycanda bərpaolunan enerji istehsalı siyasətinin strateji təməli Prezident İlham Əliyevin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiqlənmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafın milli prioritetləri" əsasında qoyulub. Adıçəkilən sənəddə öz əksini tapan 5 milli prioritetdən biri "təmiz ətraf mühit" və "yaşıl artım"la bağlıdır. Bütün bunlar bir daha rəsmi Bakının "yaşıl iqtisadiyyat"a keçidlə bağlı qarşıya qoyduğu yeni hədəflərdən xəbər verir. Ölkəmizin, həmçinin Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" və Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkətləri arasında bərpaolunan enerji üzrə pilot layihələrin həyata keçirilməsi ilə bağlı imzalanmış müqavilələr də ölkəmizin "yaşıl enerji"yə verdiyi töhfələrə nümunədir.*

*Ölkəmizin COP29-a ev sahibliyi etməyə hazırlaşdığı bir zamanda cəmiyyəti maarifləndirmək məqsədilə ilk İqlim Fəaliyyəti Həftəsinə hazırlıq işləri aparılır. COP29-un iqlim üzrə yüksək səviyyəli çempionu Nigar Arpadarainin təşəbbüsü ilə təşkil olunan Bakı İqlim Fəaliyyəti Həftəsinin sentyabrın 30-dan oktyabrın 4-dək keçirilməsi nəzərdə tutulub. Bu gün dünyanın ən böyük ictimai iqlim tədbiri olan London İqlim Fəaliyyəti Həftəsi ilə əməkdaşlıq çərçivəsində təşkil olunan Bakı İqlim Fəaliyyəti Həftəsində yüksək səviyyəli beynəlxalq konfransların və tədbirlərin keçirilməsi planlaşdırılır. Bakı İqlim Fəaliyyəti Həftəsində iqlim dəyişmələri ilə mübarizə sahəsində nəinki Bakı şəhəri, respublikamızda görülən genişmiqyaslı işlər, iqlim fəaliyyətinə dəstək olmaq üçün beynəlxalq əməkdaşlığın təşviqi ön planda olacaq. Bu tədbir Azərbaycanda iqlim dəyişmələrinə qarşı mübarizəni sürətləndirmək üçün dövlət səviyyəsində aparılan müzakirələrin genişləndirilməsi baxımından mühüm əhəmiyyətə malikdir. Bakı İqlim Fəaliyyəti Həftəsi, həmçinin Azərbaycanın iqlim dəyişmələrindən irəli gələn cari problemlərini aradan qaldırmaq və "yaşıl" keçidin təklif etdiyi imkanları araşdırmaq üçün maarifləndirici və stimullaşdırıcı platforma rolunu oynayacaq. Builki tədbirdə müzakirə ediləcək mövzular "Enerji keçidi", "Şəhərlər və urbanizasiya olunmuş mühitlər", "Su təhlükəsizliyi", "Qida və kənd təsərrüfatı", "Kiçik və orta biznes müəssisələri" və "Yaşıl bacarıqlar"dır. Bakı İqlim Fəaliyyəti Həftəsinin birinci hissəsində dövlət qurumları, elmi dairələr və özəl sektor nümayəndələri iştirak edəcək, ikinci yarısında isə incəsənət, mədəniyyət tədbirləri həyata keçiriləcək.*

**Nəzrin ELDARQIZI,**
**"Respublika".**